UOT 82(091); 82-1

# QƏZƏL XV ƏSR AZƏRBAYCAN POEZİYASININ ƏSAS JANRI KİMİ

**M.V.SÜLEYMANOVA**
***Bakı Dövlət Universiteti***
***melek.suleymanova@yahoo.com***

*Məhəbbət motivinin aparıcı olduğu bu dövrdə qəzəl janrı klassiklərmizin yaradıcılığında bütün potensialını ortaya qoymağı bacarmışdır. Bu məqalədə XV əsr klassiklərindən Hidayət, Həqiqi, Hamidi, Xəlili, Həbibi, Bəsiri, Gülşəni, Kişvəri və başqalarının yaradıcılığında qəzəlin ilk növbədə öz ilkin məzmununa sadiq qalaraq məhəbbəti, eyni zamanda, fəlsəfi-dini-ideoloji mövzuları da tərənnüm etməsindən, Gülşəni yaradıcılığı ilə mühüm bir mərhələsini təşkil etməsindən danışılır.*

**Açar sözlər:** XV əsr Azərbaycan poeziyası, şeir janrları, sənətkarlıq xüsusiyyətləri, qəzəl

XV əsr poeziyası janr baxımından da əlvan bir poeziya idi. Bu dövr poeziyamızda qəsidə, məsnəvi, tərkibbənd, tərcibənd, rübai, tuyuğ və s. janrların yer tutmasına baxmayaraq, qəzəl dövrün əsas aparıcı janrı kimi çıxış edirdi. XIII əsrə qədər saray ədəbiyyatında aparıcı janr mədhiyyə idisə, orta çağlarda ədəbiyyatın saraylarda inkişaf etməsinə baxmayaraq, saray şeiri – qəsidəçilik zəiflədi. Orta əsr klassik ədəbiyyatında aparıcı janr qəzəl idi. Başlıca mövzusu məhəbbət olan, həcmi çox da böyük olmayan qəzəl janrı xalq arasında romantik, humanist ideyaların yayılması üçün əlverişli vasitə idi. Qəzəl janrı bədii-estetik fikir və ideyalara, müxtəlif motivlərə və məcazlar sisteminə, poetik kateqoriyalara əsaslanırdı. Bu xüsusiyyətləri ilə zəngin tərəqqi yolu keçmiş qəzəl janrı həm də müəyyən aparıcı motivləri ilə qanunauyğun mahiyyətə malikdir. Üzü Həsənoğludan tutmuş XV əsrə qədər qəzəl janrı Azərbaycan ədəbiyyatında böyük bir inkişaf yolu keçmiş və müəyyən mənada, formalaşma dövrünü başa çatdırmışdı. Kiçik həcmli olub, xalq arasında geniş yayıldığına görə şairlər lirik hisslərini bu janr vasitəsilə tərənnüm edirdilər.

Mənbələr yekdilliklə qəzəli qədim ərəb poeziyası ilə bağlayır və onun məhəbbət mövzusunda meydana çıxan əsərləri ifadə edən bir janr olduğunu göstərirlər. Elə sözün lüğəti mənası da ərəbcədir və “eşqbazlıq”, “müaşirə” mənalarına uyğun gəlir. Orta əsrlərin ədəbiyyat nəzəriyyəsinə aid kitablar içərisində ilk dəfə qəzəlin tərifinə IX-X yüzilliklərdə yaşayıb-yaratmış Qüdamə

ibn Cəfərin "Nəqd əş-şeir" əsərində təsadüf edirik: "Qəzəl - ... bu, məhəbbət deməkdir, qadınlara olan çılğın sevgi haqqında hekayətdir". Qüdamə ibn Cəfər burada qəzəli məna baxımından səciyyələndirir və onun qəzələ verdiyi bu şərh az fərqlərlə çox əsrlər Yaxın Şərqdə poetikaya aid kitablarda təkrar edilir. Qüdamədən 400 il sonra XIII əsrin məşhur ədəbiyyatşünası Şəms Qeys Razidə oxuyuruq: "Bir çox şairlər sevgilinin gözəlliyinin təsvirini, məhəbbət və eşq vəziyyətinin təsvirini qəzəl adlandırırlar... Qəzəldən məqsəd ruhun təskinliyi və xoş əhval oyatmaqdır. Ona görə də qəzəl ahəngdar vəzndə, aydın və gözəl sözlərlə yazılmalı, nəcib fikirlər ifadə etməlidir". Təxminən elə fikir eynidir. Şəms Qeysin Qüdaməyə əlavəsi yalnız qəzəlin səlistlik və bədii qüdrəti haqqında məlumatdır. Lakin hər hansı bir janr öz təsdiqini müəyyən bir forma çərçivəsində ala bilər. Bu baxımdan XV əsrdə Qəbul Məhəmmədin mülahizələri diqqəti cəlb edir. Qəbul Məhəmməd qəzəli məzmununa görə açdığı kimi, onun quruluşu barədə də oxucuya məlumat verir: "Bil ki, qəzəl lüğəti mənada qadınlara məhəbbət izhar etməkdir. İstilah kimi isə bu vahid vəzn və qafiyə ilə birləşən bir neçə beytdir. Bu beytlərdə birincisində hər iki misra qafiyələnir və bu birinci beyt "mətlə", yaxud, "məbdə" adlanır. İkinci beyt əgər onun hər iki misrası həmqafiyədirsə "gözəl mətlə" adlanır. Axırıncı beyt "məqtə", yaxud "xatimə" adlanır. Qəzəlin həcmi on iki beytdən yuxarı olmasın gərək... Bəziləri elə şeirləri qəzəl adlandırırlar ki, onların məzmunu on doqquz beytdə verilir. Son zamanların şairlərindən qəzəldə beytlərin sayını iyirmi birə qaldıranlar da vardır. Qəzəldə sevgilinin gözəlliyindən, aşiqin həyəcan və hislərindən söhbət gedir. Moizə və əxlaqi nəsihətlər digər qism şeirlərdə verilir. Qəzəl (istər vüsal, istərsə də fəraq səhnəsini təsvir etsin) – bir mövzu ilə başlayıb, onunla bitməlidir. Hər beyt özündən əvvəlkindən seçilməli və möhkəm fərqlənməlidir" (1, 3-5).

Beləliklə, klassik poetika qanunlarına əsaslanan qəzəl məhəbbət və gözəlin tərənnümünə həsr olunmuş, həcmcə çox da böyük olmayan lirik şeir parçalarına verilən addır. O, səlis, rəvan, vahid ölçüdə və vahid qafiyə prinsipi əsasında tərtib edilməlidir. Monorifma burada vacibdir. Şeirin birinci beyti həmqafiyə (aa), sonrakı beytlərdə birinci misra sərbəst, ikinci misra ilk beytlə həmqafiyə olur. Və bu axıra qədər gözlənilməlidir (ba, va, qa, da). Əlbəttə, qəzəlin klassik nümunələrində onun məna çalarları daha zəngin və əhatəlidir (4, 46).

Məsələ burasındadır ki, həqiqətən də, qəzəl sonrakı əsrlərdə öz məna çalarlarını genişləndirərək, yenə də ilk növbədə məhəbbəti tərənnüm etməklə bərabər, eyni zamanda, fəlsəfi-dini-ideoloji mövzuları da tərənnüm etmişdir. Qəzəlin istər bütövlükdə Şərq ədəbiyyatında, istərsə də Azərbaycan poeziyasında keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq, bu prosesi aydın müşahidə edə bilərik. Bu mənada, qəzəl Azərbaycan poeziyasında təkcə elə Həsənoğludan başlamış XV əsr şairlərimizin yaradıcılığına qədər böyük bir inkişaf yolu keçmiş və xüsusilə, bu dövr şairlərimizin yaradıcılığında bütün potensialını ortaya qoymağı bacarmışdır. Bu mənada, təbii ki, XV əsr şairlərimizin: Hidayətin, Həqiqinin, Hamidinin, Xəlilinin, Həbibinin, Bəsirinin, Şeyx İbra-

him Gülşəninin, Kişvərinin və başqalarının yaradıcılığında qəzəl ilk növbədə öz ilkin məzmununa sadiq qalaraq, məhəbbəti tərənnüm etmişdir.

Həqiqi: Ol rüxün şəminə çün canımı pərvanə dedim,
Yaxdı-yandırdı məni, atəşi-hicranə dedim.
Neçə zahidləri pabındi-bəla qıldı saçı,
Neçə aşüftələri çəkdi o zindanə dedim (3, 197).

Hamidi: Rahət olmadı dil, ey rahəti-can, sən gedəli,
Qönçəvəş könlümə dar oldu cahan, sən gedəli.
Sünbüli-zilfün ilə gül yüzünü yad edərəm,
Gecə-gündüz qılaram ahü fəğan sən gedəli (3, 212).

Hidayət: Dün görsədüb biləklərin ol şüxi-dilrüba,
Qıldı şikəstə könlümi dəstinə mübtəla.
Ey mişk, urma laf, xətadan o zülf ilə,
Düşməz sana bu söz, yeri get, ey yüzi qara (3, 215).

Bəsiri: Şol nazənin ki, dili-zarım aşinadır ana,
Bəlayi gör ki, gözəllər də mübtəladır ana.
Yaqub yaqarsa dilü canım etiraz edəməm,
Nə söyləyim biri qurban, biri fədadır ana (3, 268).

Gülşəni: Vay əgər bu hüsnə, könlüm sormağə gəlməsə yar,
Həsrət ilə canum alur həddən aşar intizar.
Dilərəm dərman edəm dərdlümə den, nedüm,
İstəməz dərmanın anın bəndən ala dərdi, yar (6, 95).

Kişvəri: Payibəndəm bir gözü heyranə, bilmən neyləyim,
Düşmüşəm ahu təki yabanə, bilmən neyləyim.
Ol pərirüxsarədən kim, canım arami durur,
Qalmışam ayru məni-divanə, bilmən neyləyim (7, 75).

Maraqlıdır ki, qəzəl XV əsrdə artıq adlarını çəkdiyimiz bu şairlərin yaradıcılığı ilə öz poetik çərçivəsini daha da sabitləşdirmiş, forma əlamətlərinin normalarına əməl etməyə çalışmışdır. Belə ki, yuxarıda adları çəkilən şairlərin yaradıcılığında ara-sıra böyük həcmli qəzəllərə təsadüf olunsa da, artıq XV əsrdə beş-on beytdən ibarət olan həcmli qəzəllər normaya çevrilmişdir.

Eyni zamanda, bu dövrdə qəzəlin son beytində müəllifin adının və yaxud da təxəllüsünün çəkilməsi də norma halını almışdır. Belə ki, biz divan ədəbiyyatımızın ilk görkəmli nümayəndəsi olan Qazi Bürhanəddinin yaradıcılığında bunu görmürük. Qazi, divanına daxil olan qəzəllərin böyük əksəriyyətində adını və yaxud da təxəllüsünü çəkməmişdir. Nəsimidə isə bu proses artıq ənənə halını almağa başlamış və bu proses şeirimizdə, qəzəlimizdə sabitləşməyə doğru istiqamətlənmişdir. Lakin nəzərə alsaq ki, XV əsrə qədərki poeziyamızda şairin adının və yaxud da təxəllüsünün bəzən son beyt olan məqtədə deyil, ondan əvvəlki beytlərdə çəkilməsi də müşahidə olunursa, onda XV əsr poeziyamızda qəzəlin ən azı təxəllüs baxımından nə dərəcədə sabitləşdiyi fikri bir daha aydın olmuş olar:

Ey Xəlili, çün hər iş təqdir əlindən işlənür,

Fariğəm dünyavü üqbanın qəmindən, biğəməm (3, 210).
Rövşəni pərvərdəsidir Gülşəni anun içün,
Gün kimi rövşən görünür aləmə andan ziya (6, 38).
Şət qırağında meyi-Mosul içib əhbab ilə,
Kişvəridən bu qəzəl həm yadigar olsun bəgüm (7, 69).

Qeyd etdiyimiz kimi, qəzəl janrı orta əsrlərdə, xüsusilə XV əsrdə məzmun baxımından öz çərçivələrini xeyli genişləndirmişdir. Belə ki, bu dövrdə artıq qəzəl təkcə məhəbbət hislərini tərənnüm etmir, fəlsəfi, ictimai-siyasi mövzuları da ədəbiyyata gətirirdi. Bu baxımdan təkcə elə XIV əsr Azərbaycan və eləcə də bütün Şərq poeziyasının görkəmli nümayəndələrindən biri olan Nəsimi yaradıcılığını xatırlamaq kifayətdir. Nəsimi Azərbaycan ədəbiyyatında ana dilimizdə fəlsəfi qəzəlin əsasını qoyan ilk şairimizdir. Bu mənada, qəzəlin mövzu baxımından keçdiyi inkişaf yoluna nəzər salan və bu haqda olan fikirlərini Füzuli yaradıcılığı əsasında izah edən görkəmli ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin dediyi fikirlər diqqətəlayiqdir: "Füzuli qəzəllərini mövzu və məzmununa görə dörd yerə bölmək olar: 1. Aşiqanə qəzəllər, 2. İctimai-fəlsəfi qəzəllər, 3. "Təsviri" qəzəllər, 4. Minacat, nət ruhunda qismən dini mahiyyətdə olan "rəsmi" qəzəllər" (5, 18).

Qeyd edək ki, ictimai, siyasi-ideoloji məzmunlu qəzəllər XV əsr şairlərinin yaradıcılığında da mühüm yer tutmuş və xüsusilə bu əsrdə Gülşəni yaradıcılığı ilə mühüm bir mərhələsini yaşamışdır. Belə ki, Gülşəni yaradıcılığı qəzəldə ictimai-siyasi məzmunun ötəri bir mövzu olduğunu deyil, bu mövzunun, qəzəlin mövzu baxımından ayrılmaz tərkib hissəi olduğunu bir daha sübut etmişdir. Bu mənada, Azərbaycan qəzəli Şərq ədəbiyyatında təkcə forma xüsusiyyətlərinin qorunması və inkişafına görə deyil, həmçinin məzmun xüsusiyyətlərinə görə də mühüm, özünəməxsus, müstəsna yer tutmuş, bu xüsusiyyətlərinə görə digər Şərq qəzəl ədəbiyyatlarından fərqlənməklə bərabər, eyni zamanda bütövlükdə qəzəl janrının inkişafında mühüm rol oynamışdır.

Klassik Azərbaycan poeziyasında qəzəl mövzusunu tədqiq edən görkəmli alim Azadə Rüstəmova XV-XVI əsrlər Azərbaycan qəzəlinin özünəməxsus xüsusiyyətlərindən danışarkən yazır: "Qəzəl, dövrün ədəbiyyatında başlıca, aparıcı janr məqamında idi. XV–XVI əsrlər Kişvəri, Həbibi, Süruri, Bəsiri, Hilali, Hamidi, Susəni, Xəlili, Xəzani, Şahi kimi qəzəl ustadları ilə məşhurdur... Həyati, dünyəvi məhəbbət və onun rəngarəng təzahürlərinin bədii, romantik təqdimi XV-XVI əsr şairlərini daha çox maraqlandırır. Lakin bununla yanaşı təriqət şeirlərinin təsiri də qəzəldə güclüdür... Üslubi baxımdan XV-XVI əsrlər Azərbaycan qəzəli özünəməxsusdur. Hələ Qazi Bürhanəddin yaradıcılığında özünü qabarıq şəkildə büruzə verən şifahi xalq şeirinə meyil bu dövr qəzəlində də qüvvədədir. Lakin şairlərimiz daha çox Nəsimi üslubuna yaxın tərzdə yazırlar. Bir də böyük özbək şair, mütəfəkkiri Əlişir Nəvai üslubu Azərbaycan qəzəl ədəbiyyatına gətirilir.

XV əsrdə Əlişir Nəvai ədəbi məktəbi bütün Yaxın Şərqdə məşhur idi. Bu zaman Azərbaycan şairlərindən də bir qismi Orta Asiyada yaşayıb-yaradır və

həmin ədəbi məktəbin nümayəndələri cərgəsində fəaliyyət göstərirdilər. Sonradan vətənə qayıdan bu sənətkarların Nəvai üslubunun Azərbaycan qəzəlində yayılmasında müəyyən xidmətləri oldu. Lakin Nəvai qəzəli, ümumiyyətlə, türkdilli xalqların ədəbiyyatlarında ən gözəl qəzəl nümunələri sırasında idi və Azərbaycan şairləri bilavasitə Nəvai təsiri ilə yazıb yaradırdılar" (1, 62-64.).

Beləliklə, gördüyümüz kimi, əksər tədqiqatçılar doğru olaraq, Kişvəri yaradıcılığına Nəvai qəzəlinin, Nəvai dilinin, Nəvai üslubunun təsir etməsini dönə-dönə qeyd etmişlər. Bu təsir, həqiqətən də, vardır. Eyni zamanda, bu təsir Kişvəri qəzəlinin ruhuna, məzmununa, ideya istiqamətinə təsir etdiyi kimi dilinə də təsir etmiş və bütövlükdə Kişvəri yaradıcılığının timsalında XV əsr Azərbaycan ədəbiyyatının, Azərbaycan qəzəlinin özünəməxsus keyfiyyətlər qazanmasına səbəb olmuşdur.

Ey saçı sünbül, yüzi dadə, gözi ahubərə,
Boldu sənsiz ruzigarım tirəvü bəxtim qərə.
Daneyi-xalın bilə gül yüzüni görsəm məgər,
Xirməni-xurşid bir co, bağı-rizvan bir tərə.
Küsdi məndən ol bəlayi-can, gedib, ey dustlər,
Can verürmən sədəqə kim bu bəlayi qaytərə.
Zarü zər birlə müyəssər bolsa ləlin şərbəti,
Bolğay irdi çeşmeyi-heyvan nəsib İskəndərə (7, 115).

Çoxçalarlı poetik obraza malik olan qəzəl XIII-XVI əsrlər Yaxın Şərq ədəbiyyatında lirikanın əsas istiqamətverici janrı idi. Qəzəlin türkdilli poeziyada təşəkkülü və yüksələn xətt üzrə təkamülü də bu dövrlərlə bağlıdır. Xüsusilə, XV-XVI əsrlərdə türk, özbək və başqa qohum dillərdə qəzəlin misilsiz nümunələri meydana gəlir (2, 25). XV əsrdə artıq heca vəznində də şeir nümunələri yaranmağa başlayırdı. Xəzaninin yaradıcılığında bu nümunələrə, az da olsa, rast gəlinir. Lakin elə bir sənətkar tapılmaz ki, yaradıcılığında qəzələ müraciət etməsin. Bu janr özünün mükəmməllik zirvəsinə Füzuli yaradıcılığında çatdı.

Beləliklə, gördüyümüz kimi, XV əsr Azərbaycan ədəbiyyatında qəzəl janrı geniş poetik və üslubi xüsusiyyətlərə malik olmuş və bu yüzildə yaşayıb-yaradan şairlərimiz bu janrın imknalarından olduqca səmərəli şəkildə bəhrələnmişlər.

## ƏDƏBİYYAT


1. Azadə R. Klassuk Azərbaycan poeziyasında qəzəl (janrın tarixi və poetikası. XII-XVI əsrlər). Bakı: Elm, 1990, 100 s.
2. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab, Bakı: 1989, 300 s.
3. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, 408 s.
4. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni Əziz Mirəhmədov. Bakı: Maarif, 1988, 268 s.
5. Füzuli M. Əsərləri. I cild, Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1958, 465 s.
6. Gülşəni Şeyx İbrahim Bərdəi. Divan. Bakı: Avrasiya Press, 2006, 416 s.
7. Kişvəri. Əsərləri. Bakı: Şərq və Qərb, 2004, 175 s.

## ГАЗЕЛЬ КАК ОСНОВНОЙ ЖАНР АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ XV ВЕКА

**М.В.СУЛЕЙМАНОВА**

**РЕЗЮМЕ**

В поэзии этого периода, ведущим мотивом которого является любовная лирика, жанр газели с наибольшей полнотой был раскрыт в творениях азербайджанских классиков. Данная статья посвящена изучению особенностей формы и содержания газелей (особенно отражению содержащейся в них философской, религиозной, идеологической тематики) в творчестве таких поэтов XV века, как Идаят, Хагиги, Хамиди, Халили, Хабиби, Басири, Гюльшани, Кишвари и др.

**Ключевые слова:** азербайджанская поэзия XV века, стихотворные жанры, особенности мастерства, газель

## GHAZAL AS THE MAJOR GENRE OF THE XV CENTURY AZERBAIJANI POETRY

**M.V.SULEYMANOVA**

**SUMMARY**

In the poetry of this period, the leading motive of which is love lyrics, the genre of ghazal was discovered in the works of Azerbaijan classics. This article focuses on studying the peculiarities of the form and content of ghazals especially in the works of poets of the XV century, as Hidayat, Hagigi, Hamidi, Khalili, Habibi, Basir, Gulshani, Kishvari etc. (the reflection especially contained philosophical, religious, ideological themes).

**Key words:** XV century Azerbaijani poetry, poetic genres, particular skills, ghazal